Ədalət.-2020.-01 fevral.-S.12

# İşığa bələnmiş poeziya

## (Şair Mübariz Hüseynin yaradıcılığı haqqında düşüncələr)



**Bəzən adama elə gəlir ki, daha deyiləsi yeni söz qalmayıb, bir ömür yaşayan insanla, onun həyata gəlişi və həyatdan gedişi arasında Allaha, cəmiyyətə, təbiətə sevgiylə bağlı hər şey deyilib və yazılıb. Ancaq insan təfəkkürünün və düşüncəsinin sərhədləri nəhayətsizdir. Dünyanın, təbiətin, cəmiyyətin saysız-hesabsız görüntüsü mövcuddur və bu vizuallığı uşaqdan tutmuş qocayadək hər kəs özünəxas rakursdan qəbul edir. Şairlər bu görüntüləri, bu mövcudluğu özünəməxsus formada poetik duyumla ifadə edirlər. Bununla da insanı həm riqqətləndirən, heyrətləndirən, həm sarsıdan, həm də heyran edən estetik duyğu aləmi yaradırlar. Şairləri yaşadan da bu estetik aləmdir. Bunların məxsusi lirik, romantik dünyası oxucu üçün maraqlı səyahəti xatırladır. Virtual səyahəti sevənlər, xəyalən səyyah olmağı bacaranlar belə məqamları gözəl anlayırlar.**

Əslində mahiyyət etibarı ilə ədəbiyyatda bütün mövzular işlənmişdir. Lakin istedadlı qələm sahibləri, "köhnə" mövzulara da öz poetik nəfəsi ilə yeni ruh verə bilir, məhz poetik ruhun canlılığı, təravəti şairin özünəməxsusluğunu şərtləndirən amillər sırasındadır.

Müasir poeziyamızda ənənəvi şeirin inkişafına və bədii məziyyətlərinin yeni mahiyyət kəsb etməsinə, mənəvi-əxlaqi dəyərlərin poetik vüsətlə qorunmasına özünəməxsus dəst-xəttlə, səmimi ovqatla xidmət göstərən, istedadlı şairlərdən biri Mübariz Hüseyndir.

O, axarlı-baxarlı Borçalı mahalının - indiki Gürcüstan Respublikasının Baskecid rayonunun Aşağı Qarabulaq kəndində dünyaya göz açıb. Bu torpağın havasını udub, suyunu içib. Anasının ona çaldığı laylanın işığında böyüyüb, qarış-qarış gezib bu yerləri. Bəlkə bu torpağın suyundandır ki, belə saf, təmiz ürəyi geniş, yurdsevər bir ziyalıdır, kövrək qəlbli bir şairdir. İntellekti, kübarlığı, sadəliyi ilə el-obada, ziyalılar arasında, qələm adamları arasında seçilir. Adam onu özünə bir köynək yaxın hesab edir. Elm sübut edib ki, insandakı bütün müsbət və mənfi xüsusiyyətlər genetik kodla oturulur. Mübariz Hüseynin bütün gözəl keyfiyyətləri gendən, qandan gələndir. Onun bütün yaradıcılığında bu hiss olunur. Şeirlərində təkcə Borcalı mahalını deyil, bütövlükdə türk dünyasının gözəlliklərini tərənnüm edir.

**Şəhərdə bezikib gedəndə ora,
Unutdurardı mənə dərdi Başkeçid.
O qara torpaqlı, bağlı, bağatlı,
Qızıldı, gümüşdü, zərdi Başkeçid.**

**Hər yetən buz qırıb Xramda çimir,
İşləyən həzz alır, yoruldum demir.
Sirrdi ki, orda gec paslanır dəmir,
Havası tər-təmiz yerdi Başkeçid.**

**Ora meydan olub hey qaçaqlara,
Oğul istəyirəm orda at yora.
Kərəm də sığınıb düşəndə dara,
Saxlayıb qoynunda mərdi Başkeçid.**

Onun şeirlərində əxlaqi-mənəvi mövzular lirik qəhrəmanın hiss və həyəcanlarını, duyğu və düşüncələrini əks etdirməklə yanaşı, həmçinin şeirin estetik prinsiplərini də əyaniləşdirir. Lirik qəhrəmanın daxili aləminin, sevgi hisslərinin, məhəbbət iztirablarının ifadəsi onun söz palitrasında yeni rənglər, yeni çalarlarla üzə çıxır.

Şairin sevgi şeirlərində səmimi poetik deyimlər uğurlu və yaddaqalandır.

**Sən, ey pəncərədən boylanan gözəl,
Gizli hiss naləsi yandırır məni.
Ürəkdən keçəni deyə bilmir əl,
Sızlayan qəlb səsi yandırır məni.**

**Cana od qoyursan dursan da gendə,
De: - necə ataş var ey gözəl səndə?
Gizli təbəssümlə üzə güləndə,
Ömrün xoş ləhzəsi yandırır məni.**

Şair ruhunun güzgüsü lirikadır. Çox zaman bu lirik nümunələr qələm sahibinin həyat və cəmiyyət haqqında düşüncələri, fərdi xarakteri, həmçinin şəxsiyyəti barədə dolğun təəssürat yaratmağa imkan verir. Lirik əsərlər obyektiv gerçəklik haqqında şair duyğularının obrazlı ehtivasıdır. Unutmaq lazım deyil ki, şeirin, bütövlükdə lirik əsərlərin bədii sanbalını təmin edən başlıca amillərdən ən önəmlisi səmimiyyətdir.

Bu mənada Mübariz Hüseynin yaradıcılığı öz səmimi poetikası ilə maraq doğurur. Onun şeirdən-şeirə püxtələşməsi, yaradıcılığındakı forma və məzmun əlvanlığı, poetik imkanlarının getdikcə zənginləşməsi diqqətdən yayınmır.

Poeziya aləmində elə şairlər vardır ki, onların istedadının mayası xalq təfəkkürünün zənginliyindən qaynaqlanaraq, insanın arzusunu, ümidini, kədərini, sevincini, bütövlükdə mənəvi dünyasını rəvan, səmimi və aydın əks etməsindədir. Onun poeziyasının əsas mövzusu böyük türk dünyasının gözəlliklərini, doğma dilin özəlliklərini, həmçinin ləyaqətli insan şəxsiyyətinin səmimi və obrazlı tərənnümüdür. Bununla yanaşı, bu şeirlərdə əzəmət və gözəlliyin, həssaslıq və qayğıkeşliyin ata-ana ehtiramının təbliği ehtiva bədii detallarla olunur. Şairin "Ana" şeiri təsirlidir.

**Zirvəyə ucaldan ömür payımı,
Ana qənşərində əyilməyimdir.
Nəzkət gətirən əməllərimə,
Sitayiş edərək can deməyimidir.**

**Məhəbbət rəmzidir müqəddəsliyi,
Adıyla qorunar vətən isməti.
Cəfasını çəkməyimdən nur saçıb,
Üzə gülər taleyimin qisməti.**

Şairin əsərləri poetika baxımından nəzəri cəlb etməklə bərabər, həm də məxsusi yaradıcılıq fəaliyyətinin xüsusiyyətləri ilə də maraq doğurur. Səmimi ahəngdarlığı, rəvanlığı ilə seçilən şeirləri vətəndaşlıq möhürü ilə təsdiqlənərək, xalqın ruhunu oxşayan şair dəst-xəttini müəyyənləşdirir və geniş oxucu sevgisinin ünvanına çevrilir.

Mübariz Hüseynin qələmə aldığı poetik nümunələr yetkin şair düşüncəsinin sənət müstəvisində əyaniləşməsidir. Müxtəlif mövzularda yazılan şeirlərini səmimiyyət, həyat hadisələrinə fəlsəfi baxış, xeyirxahlıq duyğularının təbliği, saf sevgi kimi amillər birləşdirir. Bütün bu məziyyətlər onun sözə məsuliyyətlə yanaşmasının nəticəsidir.

Vətən sevgisi, yurd məhəbbəti doğma ocağa bağlılıq, onun yaradıcılıq kredosunun əsasını təşkil edir. Bədii-fəlsəfi ümumiləşdirmə, şeirin ruhundakı ictimai mətləbin dərinliyi onun poetik təfəkkürünün, bədii düşüncəsinin sanbalından xəbər verir.

Mübariz Hüseynin obrazlar sistemində özünü göztərən poetik vasitələrdən biri bədii suallar, xitablardır. Şairin bədii suallarla təsvir etdiyi surətin duyğu və düşüncələrini, daxili ovqatını və psixoloji məqamını şəraitə uyğun daha təsirli şəkildə üzə çıxardır.

Bu məziyyətlər bədii təsvirə konkretlik və əyanilik gətirir.

**Nadir şah yazdırdı haqsız bir yazı,
O gündən sevincə qaldın tamarzı.
Gölmələrmi qoydu adı "Qırmızı"?
Gözəllər yaşayar başı qovğalı,
Salam, Sınıq körpü, hanı Borçalı?**

Və ya:

**Bacımı gənc ikən qəzaya saldın,
Atamı min dərdə salıb apardın.
Əziz anmı da əlimdən aldın,
Qəlbi sınıq etdin məni, a dünya,
Niyə sevməliyəm səni, a dünya?**

Və yaxud:

**Müəmmalı suallara,
Yardım et dost, cavab ara.
Qəm düyünü vuran yara,
Çözülərmi, çözülməzmi?**

Özünəməxsus obrazlar yaratmaq bacarığı, sözü yerində və ustalıqla işlətmək məharəti, həmçinin sadə deyimlə zəngin poetik məna ifadə bilməsi onun poetik istedadını əyaniləşdirir.

Bu şeirlərin önəmli məziyyətlərindən biri də insanın mənəvi dünyasının, hisslər, duyğular aləminin həssas və zərif ifadə olunmasıdır. Bu poetik nümunələrdə dərin və saf bir sevginin, hicran və həsrət qoxulu məhəbbətin səmimi tərənnümü diqqəti cəlb edir. Lirik qəhrəmanın yaşadığı eşqin ucalığını, qüdrətini daha parlaq və gözəl ifadə etmək üçün istifadə olunan bədii təsvir və ifadə vasitələrinin təravətli şairin poetik ustalığının ehtivasıdır.

Mübariz Hüseyn dilimizin zəngin və rəngarəng təhkiyələrindən, bədii təsvir və ifadə vasitələrindən bacarıqla istifadə edərək, qələmə aldığı mövzuların bədii həllini, poetik ümumiləşdirməsini özünəməxsus ovqatda təqdim edə bilir. Onun yaradıcılığında məxsusi bir məziyyət var ki, onu başqalarından fərqləndirə bilir. Bu cəhəti şərtləndirən amil geniş və dərin mənada sadəlikdir və bu sadəlikdə bədii zənginlik və müdriklik mövcuddur. Onun şeirlərinin məğzini təşkil edən dərin və poetik ictimai məna böyük yaradıcılıq səciyyəsi daşıyır. Bu poetik nümunələri mövzusundan asılı olmayaraq daxili bir bədii məntiq, ümumi bir məna birləşdirir. Mübariz Hüseynin şeirlərindən insana inam və etibar motivi güclü olduğu üçün, bu məziyyət şeirlərinin bədii siqlətinə nikbin əhvali-ruhiyyə, işıq və hərarət qatır.

**Bilmirəm yolumu birdən kəsdi nə?
Qəfildən alışan bilməz tüstü nə?
Yanan ürəkləri yığıb üstünə,
Taleyi odlara yaxan olmuşam.**

**O kəs həzz alarmı söylə ovundan,
Çıxan ilan görsə bəxt tilovundan?
Yananın nurundan yox alovundan,
Əriyə-əriyə axan olmuşam.**

Mübariz Hüseynin folklor ənənələrindən, dastan poetikasından gələn rəvan və təbii üslubu, şeirlərinin vəzn, bölgü, qafiyə və poetik strukturun digər elementlərindən məharətlə istifadə etmək bacarığı onun sənətkarlıq yetkinliyini şərtləndirən keyfiyyət kimi önəmli səciyyə daşıyır. Poetik yükündən bədii mahiyyətindən asılı olmayaraq, Mübariz Hüseynin bütün şeirlərindən sevgi ətri gəlir, halallıq qoxusu duyulur. Bu şeirlərdə insanın insanlar qarşısında, bəşəriyyət qarşısında insanlıq borcunun və ləyaqətinin vicdanla, ədalətlə, namusla icrası məsələsinə böyük diqqət verilir. Bu xüsusiyyətlər onun şeirlərinə ictimai dərinlik, geniş vüsət və məzmun bütövlüyü gətirir. Şairin bir çox şeirlərinin ifadə tərzindəki məxsusilik, fikrin misra-misra incələnməsindən yaranan dolğunluq, incə lirizm, sakit və təmkinli ahəng, bədii-ictimai düşüncələrin doğurduğu poetik sanbal onun yaradıcılıq fərdiyyətinin keyfiyyət göstəricisidir.

**Bəllidir ki, bədii sənətin gücü böyük ideyanın, dəyərli fikrin obrazlı təcəssümündə, səmimi və təravətli ehtivasındadır. Bu keyfiyyətlər qələm sahibindən bədii-sözün məna çalarlarını, dilin incəliklərini duymağı, poetik obrazlar sistemində əsərin forma və məzmun vəhdətini yaratmağı, sənət qarşısında daim məsuliyyət hissini qorumağı tələb edir. Bütün bu məziyyətlər şair Mübariz Hüseynin yaradıcılığında öz əksini tapmışdır.**

**Ona yaradıcılıq uğurları arzulayıram!**

**Balayar SADİQ**